https://doi.org/10.59849/2710-0820.2026.1.118

**Nazilə Məmmədova**
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu*
*nazile_mamedova@inbox.ru*

# MÜASİR AZƏRBAYCAN TARİXŞÜNASLIĞINDA ORTA ƏSR İSLAM MƏDƏNİYYƏTİNİN MƏNBƏLƏRİNİN ÖYRƏNİLMƏSİNƏ DAİR

***Açar sözlər:*** *Azərbaycan tarixşünaslığı, İslam mədəniyyəti, mənbələr, mənbə araşdırması.*

## Giriş

İslam dininin ortaya çıxmasından etibarən geniş bir coğrafiyada əsrlər boyunca hakim olan İslam mədəniyyəti dünya sivilizasiyasının əhəmiyyətli bir parçası olub, zənginliyi, sinkretikliyi və böyük təsir gücü ilə hər zaman tədqiqatçıların diqqət mərkəzində olmuşdur. İstər tarixçilər, istərsə də müxtəlif alt disiplinlərdə tədqiqatlar aparan şərqşünaslar bu mədəniyyətin fərqli tərəflərini böyük həcmdə qaynaq materialları əsasında öyrənmiş, İslam mədəniyyəti tarix tədqiqatlarının da önəmli parçasına çevrilmişdir. İslam mədəniyyətinin tarixi sosial sahədə tədqiqatlar aparan tədqiqatçıların da ən çox müraciət etdiyi mövzulardan biri olaraq qalmaqdadır.

Dünya sivilizasiyasının qədim mərkəzlərindən olan Azərbaycan VII əsrin ortalarından etibarən İslam mədəniyyətinin bir hissəsinə çevrilmiş, yüzillliklər boyu bu mədəniyyətə böyük töhfələr vermişdir. Xilafətin təkibinə daxil olduqdan sonra Qafqazda İslamın ən əhəmiyyətli mərkəzinə çevrilən Azərbaycan eyni zamanda bu mədəniyyətin Qafqazda və qonşu bölgələrdə yayılmasında aparıcı rol oynamışdır. Xilafətin Bizans imperiyası və Xəzər xaqanlığı ilə apardığı mübarizədə İslam dininin Xəzəryanı bölgələrdə qərar tutması, daha sonra isə Bulqar dövlətinə qədər yayılmasında Azərbaycan coğrafi və dini baxımdan qərargah rolu oynamışdır, desək, yanılmarıq.

IX-XI əsrlərdə Azərbaycanda Sacilər, Salarilər, Şirvanşahlar, Rəvvadilər, Şəddadilər kimi yerli müstəqil və yarımmüstəqil dövlətlər ortaya çıxmış, İslamın və İslam mədəniyyətinin bölgədə müdafiəsində və yayılmasında böyük rol oynamışlar. Səlcuq dövlətinin hakimiyyəti dövründə, ələlxüsus İraq səlcuqlularının atabəyləri olmuş Eldənizlərin dövründə Azərbaycan böyük bir siyasi və mədəni intibah yaşamış, Qafqazda Türk-İslam mədəniyyətinin inkişafında böyük xidmətlər göstərmişdir. Sonrakı dövrdə Azərbaycan İslam dünyasının ayrılmaz parçası olaraq elm və maarifin inkişafının növbəti mərhələlərini yaşamış, dünya mədəniyyətinə böyük xadimlər bəxş etmişdir. Azərbaycan Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi dövlətlərinin yaranması ilə Qafqazda Türk-İslam cinahı daha da güclənmiş, mədəniyyətin müxtəlif istiqamətlərinin inkişafı davam etmişdir.

İslam mədəniyyəti tarixinin müxtəlif məsələlərinin, o cümlədən mənbə bazasının Azərbaycan tarixşünaslığında geniş bir şəkildə tədqiqinin əsas səbəbi, əlbəttə, Azərbaycanın İslam mədəniyyətinin bir parçası olması məqamı ilə bağlıdır. Azərbaycanın orta əsrlər tarixinin İslamın qəbulundan sonrakı mərhələdə ən mühüm siyasi, iqtisadi və sosial hadisələri, eləcə də idarəçilik, ədliyyə, maliyyə, ticarət, elm və təhsil, sənət və memarlıq, şəhər həyatı məhz bu mədəniyyətin təsiri və çərçivəsi altında baş vermişdir. Bu səbəbdən də, sırf mədəniyyət tarixini araşdırmayan tədqiqatçılar belə istər-istəməz İslam mədəniyyətinin yuxarıda adları çəkilən ünsürlərinin üzərində daha geniş dayanmaq zərurətini qəbul etmişlər.

Müasir Azərbaycan tarixşünaslığında orta əsr İslam mədəniyyətinin mənbələrinin araşdırılması bu istiqamətdə aparılan tədqiqatların əsas istiqamətlərindən biridir. Bu istiqamət yalnız dini-mədəni irsin araşdırılmasını deyil, həm də tarix elminin metodoloji zənginləşməsini təmin edir. Hazırkı məqalənin məqsədi müasir Azərbaycan tarixşünaslığında orta əsr İslam mədəniyyətinin mənbələrinin öyrənilməsi dərəcəsini təhlil etmək, əsas elmi istiqamətləri mü-

əyyənləşdirmək və mövcud nəticələrin elmi-nəzəri qiymətləndirilməsini aparmaqdan ibarətdir.

**Azərbaycan tarixşünaslığında orta əsr İslam mədəniyyətinin mənbələrinin araşdırılması istiqamətləri**

Sovet dövrünün bütün yasaqlarına və ideoloji buxovlarına baxmayaraq, İslam dini və İslam mədəniyyəti Azərbaycan tarixinin və sıravi azərbaycanlının həyatının bir parçasına çevrilmişdir. Yetmiş illik mərhələnin ardından İslam dininin Azərbaycan xalqı və dövləti üçün əhəmiyyəti, İslam dəyərlərinə Azərbaycan xalqının sadiqliyi bu mədəniyyətin obyektiv araşdırılmasını da zəruri etmişdir. Bununla əlaqədar Ulu Öndər Heydər Əliyev qeyd edirdi:

*"Biz keçmişdə sovet hakimiyyəti dövründə yaşamışıq, sovet quruluşunda yaşamışıq, kommunist ideologiyası altında yaşamışıq. Ona görə də bizim mənəvi mənbəyimiz, mənəvi dəyərimiz olan dinimizi əlimizdən almışdılar, din qadagan olunmuşdu, bütün dini etiqadlar qadagan edilmişdi, yasaq olunmuşdu. Ancaq 70 il belə bir şəraitdə yaşayan Azərbaycan xalqı öz doğma İslam dinindan heç vaxt ayrı düşməmişdir. Bizim dinimiz – İslam dinimiz qəlbimizdə yaşamışdır, insanlar onu yaşatmışlar və Azərbaycan kommunist ideologiyasından, sovet hakimiyyətindən xilas olandan sonra qısa bir zamanda insanlar öz qəlblərində yaşatdıqlan bu hissiyyatları, dinə olan münasibəti dərhal bir fəvvarə, fontan kimi aşkar etdilər və din yenidan bizim cəmiyyətimizdə öz yerini tutdu. İslam dini indi Azərbaycanda bütün insanlar tərəfindən hər kəsin öz istədiyi kimi, vicdan azadlığından istifadə edərək yayılır və istifadə edilir"* (Əliyev, 2006, s.15).

1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan tarixçiləri marksist metodologiyadan, sovet elminin ideoloji və siyasi qərəzlərə dayanan məhdudiyyətlərindən, rus tarixçilərinin "inhisarçılığı"ndan xilas olaraq milli tarixlərini, o cümlədən İslamın Azərbaycan xalqının təşəkkülündə rolu, Azərbaycanın Türk İslam mədəniyyətinin tərkib hissəsinə çevrilməsi prosesinin xüsusiyyətləri kimi məsələlər yenidən, milli ruhda və obyektiv araşdırılmağa başladılar. Vətən tarixşünaslığında yaşanan böyük dəyişikliklər, o cümlədən Azərbaycan tarixinin tədqiqinin dövlət siyasətinin mühüm prioritetlərindən biri olaraq görülməsi, milli tariximizin bir çox konseptual məsələsinə yenidən baxılması, Azərbaycançılıq ideologiyasının tarixi tədqiqatların ana xəttinə çevrilməsi, əlbəttə, mədəniyyət tarixinin araşdırılması istiqamətində də pozitiv dəyişikliklərə yol açmış oldu. İslam mədəniyyəti, eləcə də onun tərkib hissəsi olan Azərbaycan mədəniyyətinin tarixi, inkişaf mərhələləri və xüsusiyyətləri, müsəlman alimlərinin və sənət adamlarının həyatı və fəaliyyəti böyük İslam mədəniyyətinin tərkib hissəsi olaraq aşraşdırılmağa başlandı. Ulu Öndər Heydər Əliyevin "Azərbaycan XXI əsrin və Üçüncü minilliyin ayrıcında" adlı Müraciəti Azərbaycan tarixçiləri üçün "Azərbaycan tarixinin Dirçəliş konsepsiyası" oldu və bu konsepsiya çərçivəsində Vətən tarixşünaslığında orta əsrlər tarixi, o cümlədən İslam mədəniyyəti tarixi məsələlərinin obyektiv və kompleks araşdırılmasına başlandı (Məmmədova, 2023, s.98-99).

Müasir Azərbaycan tarixşünaslığında orta əsr İslam mədəniyyətinin mənbələrinin tədqiqi istiqamətindəki araşdırmaları aşağıdakı kimi qruplaşdıra bilərik:

1. Dini mənbələrin tədqiqi – onların da içərisində Qurani-Kərim və onun təfsir ənənəsi əhəmiyyətli yer tutur. Bu qrupdan olan tədqiqatların içərisində hədis və sünnə materiallarının, fiqh və İslam hüququ ilə bağlı əsərlərin mənbə kimi tədqiqi və şərhi də böyük paya sahibdir.
2. Fəlsəfi mənbələrin tədqiqi – orta əsr İslam fəlsəfəsi üzrə mənbələrin öyrənilməsi və Azərbaycan tarixşünaslığında təhlili.
3. Ədəbiyyat nümunələrinin və incəsənət abidələrinin tədqiqi – bu da İslam mədəniyyətinin estetik və bədii aspektlərinin, orta əsr Azərbaycan ədəbiyyatında İslam mədəniyyətinin izlərinin, milli dəyərlərin müəyyən edilməsinə imkan verir.
4. Tarixi mənbələrin tədqiqi – ərəb və farsdilli tarixçilərinin əsərlərindəki materialların araşdırılması İslam mədəniyyəti və onun tərkib hissəsi olan Azərbaycan mədəniyyətinin (Xilafət dövrü, Səlcuqlu dövrü, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi dövrü) öyrənilməsinə xidmət edir.

Bu mənbələrlə yanaşı, arxeoloji, epigrafik və numizmatik materailların tədqiqi istiqamətində də Azərbaycan tarixşünaslığı böyük uğurlar əldə edə bilmişdir. Bu tədqiqatlar Azərbay-

can ərazisində tapılmış İslam dövrü maddi-mədəniyyət nümunələrini, epigrafik abidələri, numizamtik materialları araşdıraraq elmi dövriyyəyə gətirmişdir. Mənbələrin tədqiqində interdisiplinar metodların, rəqəmsal mənbəşünaslıq və yeni texnologiyaların tətbiqi son onilliklərdə geniş yayılmışdır.

**Tədqiqat**

İslam mədəniyyətinin öyrənilməsi sahəsində orta əsr mənbələri xüsusi elmi dəyərə malikdir. Bu mənbələr yalnız dini və mənəvi dəyərlərin deyil, həm də İslam cəmiyyətlərinin idarəetmə formalarının, sosial münasibətlərinin və siyasi institutlarının inkişafını əks etdirir. Bu mənbələr sırasında xronikalar, salnamələr, hüquqi sənədlər, dini-fəlsəfi traktatlar və coğrafi təsvirlər mühüm yer tutur. Bu mənbələr vasitəsilə orta əsr İslam dünyasının siyasi strukturları, beynəlxalq münasibətləri və mədəni əlaqələri barədə sistemli məlumat əldə olunur. Azərbaycan alimləri bu mənbələri təhlil edərək İslam sivilizasiyasının regiondakı yayılma prosesini, onun ictimai institutlar və idarəçilik ənənələri üzərindəki təsirini müəyyənləşdirmişlər. Nəticə etibarilə, orta əsr İslam mənbələrinin araşdırılması İslam mədəniyyətinin ictimai və dövlətçilik aspektlərinin dərkində mühüm mərhələ təşkil edir. Azərbaycan tarixşünaslığı bu istiqamətdə tədqiqatlarını genişləndirərək İslamın milli dövlətçilik düşüncəsinə, hüquqi mədəniyyətə və sosial ədalət prinsiplərinə təsirini daha dərindən işıqlandırmağa yönəlmişdir. Bu isə İslam mədəniyyətinin müasir Azərbaycan kimliyinin formalaşmasında oynadığı rolu obyektiv şəkildə qiymətləndirməyə imkan verir.

Bu istiqamətdə son 30 ildə aparılan tədqiqatları şərti olaraq aşağıdakı kimi qruplaşdıra bilərik: 1. Azərbaycanın orta əsr mədəniyyəti tarixi üzrə tədqiqatların mənbə bazasının öyrənilməsi. 2. İslam mədəniyyətinin ayrılmaz hissəsi olan Azərbaycan şəhərlərinin orta əsr tarixi üzrə tədqiqatların mənbə bazasının öyrənilməsi. 3. Ümumislam mədəniyyəti tarixi üzrə tədqiqatlar. 4. Ümumiləşdirici əsərlər.

Birinci qrup tədqiqatların müəllifləri içərisində ilk növbədə akad. N. M. Vəlixanlı, N.Əliyeva, Ş.Ş. Şərifov kimi tədqiqatçıları göstərmək lazımdır. Bu müəlliflərin tədqiqatları geniş mənbəşünaslıq bazasına malik olub, eyni zamanda həmin mənbələrin geniş tədqiqi ilə seçilir. Tədqiqatları sovet dövründə də geniş spektrli olan akad. N. M. Vəlixanlının müstəqillik illərində qələmə aldığı fundamental əsərlər içərisində "Azərbaycan VII-XII əsrlərdə: tarix, mənbələr, şərhlər" (Vəlixanlı, 2016) xüsusi qeyd edilə bilər. Adından da göründüyü kimi, monoqrafiyada Azərbaycanın VII-XII əsrlər tarixi üzrə mənbələr araşdırılmış olub, İslam mədəniyyəti məsələlərinə də yer verilmişdir. Akademikin "Naxçıvan - ərəblərdən monqollaradək", "Naxçıvanın VII-XII əsrlər dövrü tarixdə və tarixşünaslıqda" adlı monoqrafiyaları və "VII-XII əsrlər Azərbaycan elmi-ədəbi mühiti və onun dili məsələsinə dair" məqaləsi də bu qəbildən olub böyük elmi aktuallıq kəsb (Vəlixanlı, 2005; Vəlixanlı, 2015; Vəlixanlı, 1998) .

Tədqiqatları bilavasitə Azərbaycanın İslam mədəniyyəti tarixi məsələlərinə həsr edilmiş və geniş ərəbdilli mənbələrin materiallarına əsaslanan görkəmli tədqiqatçılarımız sırasında, heç şübhəsiz, N. Əliyevanı qeyd etməyi vacib bilirik. Onun "Azərbaycan Yaqut əl-Həməvinin əsərlərində", "Kitab əl-Ənsab" əsəri Azərbaycanın mədəniyyət tarixinə aid mənbə kimi", "İbn Makula azərbaycanlı alimlər haqqında", "Şeyx əs-Siləf və Azərbaycan", "Azərbaycanın elmi-mədəni mühitinin öyrənilməsində ərəbdilli ədəbiyyatın rolu (XI-XIII əsrlər)", "Azərbaycanda İslam Mədəniyyəti (VII-XIII əsrlər)" "Orta əsrlərdə Azərbaycan alimlərinin elmi əlaqələri və tədris fəaliyyəti" adlı monoqrafiyaları alimin uzun illər davam etmiş araşdırmalarının nəticəsi olub, İslam mənbələrinin geniş faktoloji materiallarına əsaslanır (Əliyeva, 1999; Əliyeva, 2017; Əliyeva, 2015a; Əliyeva, 2015b; Əliyeva, 2014; Əliyeva, 2010). Adı çəkilən monoqrafiyalar Azərbaycan tarixşünaslığının fundamental əsərləri sırasında yer almaqdadır. N. Əliyevanın Azərbaycan İslam mədəniyyətinə həsr edilmiş silsilə məqalələrində də geniş spektrdə məsələlər – Azərbaycanın mədəni əlaqələrinin mənbəşünaslığı, orta əsr Azərbaycan alimlərinin nisbələri, Əbdülkərim əs-Səmaninin elmi irsi və s. öz əksini tapmışdır (Əliyeva, 2009; Əliyeva, 2004; Əliyeva, 2005; Əliyeva, 2003).

Azərbaycanın görkəmli şərqşünaslarından Ş.Ş.Şərifovun tədqiqatları da geniş spektrli olub, İslam mədəniyyətinin, o cümlədən ayrı-ayrı Azərbaycan şəhərlərinin İslam coğrafiyasındakı rolunun araşdırılması istiqamətində bö-

yük elmi dəyərə malikdir. Bu tədqiqatlar zəngin mənbə bazasına malik olub, həmin mənbələrin öyrənilməsi istiqamətində çox əhəmiyyətlidir. Bunların içərisində "Azərbaycanın Xilafət tərəfindən fəthi və İslamın Azərbaycanda yayılması" (Şərifov, 2019a), eləcə də Marağa, Ərdəbil, Tiflis və Təbriz şəhərlərinin tarixini ərəb mənbələri əsasında araşdıran tədqiqatlarını xüsusi qeyd etmək olar (Şərifov, 2021; Şərifov, 2022; Şərifov, 2018; Şərifov, 2019c; Şərifov, 2019d). "Erkən Xilafət dövründə yaşamış azərbaycanlı alimlər (VII-X əsrlər)" adlı məqalədə isə fəaliyyəti tarixşünaslıqda geniş araşdırılmayan əl-Azərbaycani, əl-Bərzəi, ət-Tiflisi, əl-Bərdici, əl-Varsani, əd-Dərbəndi, əd-Dəbili, əz-Zəncani kimi alimlərin həyatı tədqiq edilmişdir (Şərifov, 2019a).

Bu istiqamətdə aparılan tədqiqatlar içərisində X. S. Qasımovun əsərlərini qeyd etməliyik, çünki müasir Azərbaycan tarixşünaslığında bilavasitə orta əsr Azərbaycan mədəniyyəti tarixi məsələləri ilk dəfə məhz onun əsərlərində kompleks şəkildə və geniş mənbəşünaslıq bazası əsasında araşdırılmışdır. Müəllifin "Azərbaycan mədəniyyəti (XVI-XVII əsrlər)" və "Orta əsrlərdə Azərbaycan mədəniyyəti" adlı monoqrafiyaları, eləcə də mövzu ilə bağlı böyük sayda məqalələri İslam mədəniyyətinin mənşəyi, xarakteri, mahiyyəti, Azərbaycan mədəniyyətinin başlıca istiqamətləri, orta əsrlərin ictimai-siyasi mütininin və iqtisadi həyatının mədəni proseslərə təsirini tədqiq etmiş olub, orta əsr Azərbaycan, eləcə də ümumilikdə islam mədəniyyəti tarixinin öyrənilməsi üçün əhəmiyyətlidir (Qasımov, 2002; Qasımov, 2008).

Göstərilən istiqamətdə M. Seyidbəylinin "XIII əsrin birinci yarısında – XIV əsrin əvvəllərində Azərbaycanın elmi-mədəni həyatı", eləcə də E. Quliyevin "XIII-XIV əsrlərdə Azərbaycanda elm və mədəniyyət" və B. Quliyevin "XIII-XV əsrlər Azərbaycan elm və mədəniyyət tarixi" adlı monoqrafiyalarını da xüsusi qeyd etmək lazımdır (Seyidbəyli, 1990; Quliyev, 2022; Quliyev, 2021). Birinci müəllifin əsərində farsdilli mənbələrin materialları əsasında araşdırma aparılmış, ikinci əsərdə isə geniş faktoloji materiala istinadən XIII-XV əsrlər Azərbaycan mədəniyyətinin tarixini tədqiq edilmişdir. Hər üç əsər yuxarıda qeyd etdiyimiz birinci qrup – Azərbaycanın orta əsr mədəniyyəti tarixi üzrə tədqiqatlar sırasına daxildir.

Birinci qrup əsərlər içərisində akademik Y. M. Mahmudovun "Azərbaycan tarixi. Erkən İntibah dövrü" adlı monoqrafiyasını xüsusi qeyd etməyi məqsədəuyğun gördük (Mahmudov, 2008). İlk nəşri 1996-cı ilə aid olan əsər ümumilikdə IX-XII əsrlər Azərbaycan tarixinin ayrı-ayrı məsələlərini araşdırsa da, mədəniyyət məsələlərinə də geniş verilmişdir. Qeyd edək ki, Azərbaycan tarixçiləri arasında İntibah məsələləri sovet dövründə də tədqiqat mövzusu olmuş, lakin ilk dəfə olaraq akad. Yaqub Mahmudov tərəfindən bu dövr Azərbaycan mədəniyyətinin "İntibah dövrü" deyil, məhz "*Erkən* İntibah dövrü" adlandırılmışdır. Bununla da əslində Azərbaycan mədəniyyətində İntibahın sonrakı yüzilliklərdə davam etdiyi müddəası irəli sürülmüşdür. Qeyd edək ki, orta əsr müsəlman İntibahı məsələləri müasir Azərbaycan tarixşünaslığında digər müəlliflər tərəfindən də tədqiqat mövzusu olaraq çalışılmış, mövzu ilə bağlı fərqli nöqteyi-nəzərlər irəli sürülmüşdür (Çağlayan, 2022; Qasımov, 1997; Qasımov, 2006).

Akad. Yaqub Mahmudovun tədqiqatlarının daha bir xüsusiyyəti - Azərbaycanın VII-X əsrlər tarixinin Türk İslam mədəniyyətinin bir parçası kimi səciyyələndirilməsi, İslamın Azərbaycan xalqının təşəkkülündə oynadığı rola yüksək qiymət verməsidir. Müəllif bununla əlaqədar yazır: "*Türk İslam birliyi Azərbaycan varlığının təməlində əbədi və möhkəm yer tutdu. Gücümüzü artırdı. Birləşdik. Vahid xalqa çevrildik. Azərbaycan türk dili bütün Qafqazda qüdrətli ünsiyyət vasitəsi rolunu oynamağa başladı*" (Mahmudov, 2008, s.4). Orta əsr müsəlman mədəniyyətinin ayrı-ayrı nümayəndələrinin həyatı və fəaliyyəti akad. Y. M. Mahmudovun digər əsərlərində də araşdırılmış, Azərbaycanın İslam mədəniyyətindəki yeri və rolu həm İslam mənbələri, həm də Avropa mənbələri əsasında müəyyən edilmişdir. Onların içərisində akademikin "Səyyahlar, kəşflər, Azərbaycan" və "Səyyahlar Azərbaycana gəlir" adlı əsərlərini xüsusi qeyd etmək olar (Mahmudov, 2012; Mahmudov, 2020). Erkən orta əsrlərdə Azərbaycan xalqının etnogenezi, İslamı qəbulu, Cənubi Qafqazda Türk-İslam mədəniyyətinin təşəkkülündə Azərbaycan dövlətlərinin yeri kimi əhəmiyyətli məsələlər Yaqub Mahmudovun

“Azərbaycanlılar (etnik-siyasi tarixə ümumi baxış)” adlı kitabında da tədqiq edilmişdir (Mahmudov, 2008).

Səlcuqlu dövrü Azərbaycan İslam mədəniyyətinin bəzi məsələləri R.Ə. Hüseynovun “Qafqaz və səlcuqlular” adlı fundamental monoqrafiyasında öz əksini tapmışdır. Onun monoqrafiyasında İslam mənbələri ilə yanaşı, Bizans və yəhudi mənbələri də araşdırılmış olub, əsər geniş mənbə bazasına malikdir (Guseynov, 2010).

Orta əsr Azərbaycan şəhərlərinə həsr olunmuş tədqiqatlarda da İslam mədəniyyəti məsələləri geniş yer almış olub, bu şəhərlər sosial və iqtisadi təsisat olmaqla yanaşı, həm də mədəni təsisat olaraq da tədqiq edilmişdir. Bu mənada şübhəsizdir ki, akad. N. M. Vəlixanlı, T. M. Dostiyev, İ. Məmmədova, H. Səfərlinin, R. Salayevanın, Y. H. Çağlayanan ayrı-ayrı Azərbaycan şəhərlərinin tarixinə və mədəniyyətinə həsr edilmiş monoqrafiya və məqalələri müasir Azərbaycan tarixşünaslığında İslam mədəniyyəti tarixi üzrə tədqiqatları zənginləşdirmişdir (Vəlixanlı, 2005; Vəlixanlı, 2015; Vəlixanlı, 1998; Dostiyev, 2019; Dostiyev, 2016; Məmmədova, 2016; Səfərli, 2017; Salayeva, 2002; Çağlayan, 2023).

Üçüncü qrup, yəni Ümumislam mədəniyyəti tarixi üzrə tədqiqatlara gəlincə, müasir Azərbaycan tarixşünaslığında bu istiqamətdə əsərlər hələ ki, azlıq təşkil edir. Onların içərisində ilk növbədə Ş. Ş. Şərifovun “İslam tarixi”, S. Həsənlinin “İslam mədəniyyətində elm” və E. Məmmədovun “Orta əsr İslam fikrində din və fəlsəfə” adlı monoqrafiyaları qeyd etməyi vacib bilirik (Şərifov, 2013; Həsənli, 1998; Məmmədov, 2019). Ş. Ş. Şərifovun “İslam tarixi” adlı monoqrafiyasında İslam dininin yaranması və təşəkkülü, İslam tarixinin önəmli hadisələri, Xilafət və onun İslam tarixində yeri kimi məsələlər öz əksini tapmış olub, müasir Azərbaycan tarixşünaslığında İslam tarixini kompleks şəkildə araşdıran ilk böyük həcmli əsərdir. monoqrafiyalarında isə orta əsr İslam elminin inkişafı yolu. Həmçinin İslam fikrində din-fəlsəfə münasibətləri araşdırılmış, İslam rasional fikrinin təşəkkülü tarixi, rasional proseslər və din-fəlsəfə münasibətləri, rasional-dini təlimlərin metodoloji bazasında dinin ehkamlarının yeri, sufilik kimi məsələləri xüsusi yer verilmişdir.

Qeyd edək ki, bu qəbildən olan, yəni Ümumislam mədəniyyəti tarixi və ya Azərbaycanın ayrı-ayrı bölgələrinin mədəniyyəti ilə bağlı mövzulara son onillikdə tədqiqatçıların arasında müraciət halları artmışdır. Onların içərisində A. X. Məşədi, E. N. Məşədi və Q. Əliyevin monoqrafiyalarını, K. Mədədzadə və Z. Quliyevanın məqalələrini vurğulaya bilərik (Məşədi, 2001; Əliyev, 2007; Mədədzadə, 2022; Quliyeva, 2022).

Akademik nəşr olan yeddi cildlik “Azərbaycan tarixi”nin ikinci və üçüncü cildlərində müvafiq fəsillərdə Azərbaycanda İslamın yayılması və nəticələri (II cild, VII fəsil), Xilafət dövrü Azərbaycanın maddi mədəniyyəti, elm və fəlsəfi fikri, ədəbiyyatı, memarlıq və şəhərsalma (II cild, X fəsil), monqol istilası ərəfəsində Azərbaycan mədəniyyəti (II cild, XV fəsil), XIII-XV əsrlərdə Azərbaycanda maarif, elm, ədəbiyyat, epiqrafik abidələr, incisənət və memarlıq, fəlsəfi fikir, maddi mədəniyyət kimi məsələlər (III cild, V fəsil) araşdırılmışdır.

Dördüncü qrupda bilavasitə İslam mədəniyyəti tarixi məsələlərinə həsr edilməyib, ümumiləşdirici xarakterli əsərləri də qeyd etmək olar. Onların da içərisində Asiya və Afrika ölkələri tarixi, Yaxın və Orta Şərq tarixi üzrə dərs kitablarını, eləcə də “Mədəniyyətşünaslıq” və “İslam memarlığı və inşaat” adlı kitabları qeyd etmək olar. Bu kitablar tədris vəsaiti məqsədilə tərtib edilsə də, İslam mədəniyyətinin əhəmiyyətli məsələlərini də ehtiva etməkdədir (Abasov və Hüseynova, 2010; Axundova, 2010; Məmmədova, 2001).

Nəticə olaraq qeyd etməliyik ki, orta əsrlər İslam dünyasında elm və mədəniyyət yüksəliş dövrü olaraq qəbul edilir. İslam dininin yayılması, üç qitəni və bu qitələrdə yaşayan xalqları əhatə edən İslam sivilizasiyasının təşəkkülü, Xilafət və ardından Səlcuqlu imperiyası kimi qüdrətli müsəlman dövlətlərinin yaranıb yüksəlməsi İslam mədəniyyətinin dünya mədəniyyətində əvəzsiz yerini müəyyən etmişdir. Xaçlı yürüşləri və monqol istilaları dövründə böyük hərbi-siyasi təlatümlər yaşayan İslam dünyasında elm və maarifin inkişafına maneələr yaransa da, İslam mədəniyyəti dünyanın aparıcı mədəniyyəti rolunu itirməmişdir.

**Nəticə**

İslam mədəniyyətinin mənbələrinin öyrənilməsi müasir Azərbaycan tarixşünaslığının mühüm istiqamətlərindən birini təşkil edir. Bu tədqiqat sahəsi yalnız dini və mənəvi irsin öyrənilməsi ilə məhdudlaşmır, həm də İslamın formalaşdırdığı geniş mədəni, siyasi və elmi sistemin Azərbaycan tarixindəki izlərini araşdırmağa imkan verir. İslam mədəniyyəti əsrlər boyu Azərbaycan xalqının mənəvi kimliyinin, əxlaqi dəyərlərinin və dövlətçilik ənənələrinin əsas tərkib hissəsinə çevrilmişdir.

Nəzərdən keçirdiyimiz tədqiqatların icmalı göstərir ki, Azərbaycan tarixşünaslığında orta əsr İslam mədəniyyətinin öyrənilməsinə keçən əsrin 30-cu illərindən başlanmış, bu mədəniyyətinin ayrı-ayrı komponentləri ilə bağlı fundamental araşdırmalar aparılmışdır. Həmin araşdırmalar müasir dövr Azərbaycan tarixşünaslığında İslam mədəniyyəti tarixinin tədqiqi üçün təməl rolunu oynamışdır. Nəzərdən keçirdiyimiz bir qisim əsərin təhlili göstərir ki, orta əsr İslam mədəniyyətinin öyrənilməsi istiqamətində Azərbaycan tarixşünaslığı kifayət qədər böyük yol qət etmişdir. Ələlxüsus Azərbaycan elmi və maarifi, fəlsəfi düşüncə tarixi, memarlıq abidələri Azərbaycan tədqiqatçıları tərəfindən kifayət qədər geniş şəkildə araşdırılmışdır.

Beləliklə, müasir Azərbaycan tarixşünaslığında İslam mədəniyyətinin mənbələrinin öyrənilməsi yalnız tarixi biliklərin zənginləşdirilməsi deyil, həm də milli-mənəvi özünüdərkin elmi əsaslarla möhkəmləndirilməsi prosesinə xidmət edir. Bu istiqamətin inkişafı gələcəkdə İslam sivilizasiyasının Azərbaycan və dünya mədəniyyətinə təsirinin daha dərin və obyektiv şəkildə tədqiqinə geniş imkanlar açacaqdır.

## ƏDƏBİYYAT

Abasov, E. A., & Huseynova, E. N. (2010). *Islam memarlığı və inşaat*. Bakı: Qərb Universiteti.

Axundova, N. Ç. (2010). *Asiya və Afrika ölkələrinin orta əsrlər tarixi*. Bakı: Adiloğlu.

Azərbaycan tarixi (Cild 2: III–XIII əsrin birinci rübü). (1998). Bakı: Elm.

Azərbaycan tarixi (Cild 3: XIII–XVIII əsrlər). (1999). Bakı: Elm.

Çağlayan, Y. H. (2022). Ortaçağ İslam medeniyetinin yükselme dönemi ve Avrupa Rönesansı: Tarihsel paraleller. *TURAN-SAM Dergisi*, 14(54), 126–132.

Çağlayan, Y. H. (2023). Erdebil IX–X yüzyıllarda. *TURAN-SAM Dergisi*, 15(58), 162–169. https://doi.org/10.15189/1308-8041

Dostiev, T. M. (2018). Srednevekovaya gorodskaya kultura Azerbaydzhana. *Arkheologiya evraziyskikh stepey*, 4, 222–237. [in Russian]

Dostiyev, T. M. (2016). *Azərbaycanın orta əsr şəhərləri (IX–XIII əsrin əvvəlləri)*. Bakı: Elm və Təhsil.

Dostiyev, T. M. (2019). Azərbaycanda şəhər mədəniyyətinin formalaşmasında İslamın rolu. *Dövlət və Din*, 2(61), 112–118.

Əliyev, H. (2006). *Müstəqilliyimiz əbədidir* (Vol. 18). Bakı: Azərnəşr.

Əliyev, Q. (2007). *Memar Əcəmi Naxçıvani yaradıcılığında ahəngdarlıq*. Bakı: Şərq-Qərb.

Əliyeva, N. (1999). *Azərbaycan Yaqut əl-Həməvinin əsərlərində*. Bakı: Çaşıoğlu.

Əliyeva, N. (2003). Orta əsr Azərbaycan ziyalılarının nisbələri haqqında. *Öndər*, (2), 40-41.

Əliyeva, N. (2004). Əs-Səmaninin "Kitab əl-Ənsab" əsəri Azərbaycanın mədəniyyət tarixinin öyrənilməsində mənbə kimi. In *Şərqşünaslığın aktual problemləri* (pp. 242–245). Bakı: BDU.

Əliyeva, N. (2005). Əbdülkərim əs-Səmani və onun elmi irsi. *AMEA Xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası*, (5–6), 236–241.

Əliyeva, N. (2006). İslam mədəniyyətinin inkişafında Naxçıvanın yeri və rolu. In *Naxçıvan: Tarixi gerçəklik, müasir durum, inkişaf perspektivləri* (pp. 390–400). Naxçıvan: Təhsil.

Əliyeva, N. (2009). IX–XIII əsrlərin ərəbdilli bioqrafi mənbələri. *Bakı Dövlət Universitetinin Xəbərləri. Humanitar Elmlər Seriyası*, (4), 193–199.

Əliyeva, N. (2010). *Kitab əl-Ənsab əsəri Azərbaycanın mədəniyyət tarixinə aid mənbə kimi*. Bakı: Şərq-Qərb.

Əliyeva, N. (2014). *İbn Makula azərbaycanlı alimlər haqqında*. Bakı: Turxan.

Əliyeva, N. (2015a). *Azərbaycanın elmi-mədəni mühitinin öyrənilməsində ərəbdilli*

*ədəbiyyatın rolu (XI–XIII əsrlər)*. Bakı: Elm və Təhsil.

Əliyeva, N. (2015b). *Orta əsrlərdə Azərbaycan alimlərinin elmi əlaqələri və tədris fəaliyyəti*. Bakı: Turxan NBP.

Əliyeva, N. (2017). *Azərbaycanda İslam mədəniyyəti (VII–XIII əsrlər)*. Bakı: Elm və Təhsil.

Guseynov, R. A. (2010). *Kavkaz i seldzhuki* [in Russian]. Baku: Kavkaz.

Hacıyev, Q. Ə. (2008). *Bərdə şəhəri: Coğrafi, siyasi və mədəni tarixi*. Bakı: Uniprint.

Həsənli, S. (1998). *İslam mədəniyyətində elm*. Bakı: Elm və Həyat.

Hüseynov, H. (2007). *XIX əsr Azərbaycan ictimai və fəlsəfi fikir tarixindən*. Bakı: Şərq-Qərb.

Mahmudlu, Y. M. (2008). *Azərbaycan tarixi: Erkən İntibah dövrü*. Bakı: Aspoliqraf.

Mahmudlu, Y. M. (2012). *Səyyahlar, kəşflər, Azərbaycan*. Bakı: Təhsil.

Mahmudlu, Y. M. (2020). *Səyyahlar Azərbaycana gəlir*. Bakı: Turxan.

Mahmudov, Y. M. (2008). *Azərbaycanlılar: Etnik-siyasi tarixə ümumi baxış*. Bakı: Aspoliqraf.

Mədədzadə, K. (2022). Orta əsrlərdə ərəb elmi İslam mədəniyyəti kontekstində. *Elm və İnnovativ Texnologiyalar Jurnalı*, 20, 59–65.

Məmmədov, E. (2019). *Orta əsr İslam fikrində din və fəlsəfə*. Bakı: Nurlan.

Məmmədova, İ. (2016). *Təbriz şəhərinin maddi mədəniyyəti*. Bakı: Çaşıoğlu.

Məmmədova, N. B. (2023). Azərbaycanın erkən orta əsrlər tarixşünaslığının bəzi məsələləri. *AMEA Sosial Elmlər*, (1), 97–104. https://doi.org/10.59849/2710-0820.2023.1.97

Məmmədova, S. K. (2001). *Mədəniyyətşünaslıq*. Bakı: Kooperasiya Nəşriyyatı.

Məşədi, A. X., & Məşədi, E. N. (2001). *İslam memarlığı və inşaat*. Bakı: Nurlan.

Qasımov, X. S. (1997). Azərbaycan İntibahı probleminin öyrənilməsi tarixindən. *AMEA Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası*, (1–4), 108–115.

Qasımov, X. S. (2002). *Azərbaycan mədəniyyəti (XVI–XVII əsrlər)*. Bakı: Nurlan.

Qasımov, X. S. (2006). Azərbaycan Renessansı (İntibahı) probleminə dair bəzi mülahizələr. *AMEA Xəbərləri*, (7), 173–185.

Qasımov, X. S. (2008). *Orta əsrlərdə Azərbaycan mədəniyyəti*. Bakı: Aspoliqraf.

Quliyev, B. N. (2022). *XIII–XV əsrlər Azərbaycan elm və mədəniyyət tarixi*. Bakı.

Quliyev, E. B. (2021). *XIII–XIV əsrlərdə Azərbaycanda elm və mədəniyyət*. Bakı: Elm və Təhsil.

Quliyeva, Z. (2022). Erkən orta əsrlərdə müsəlman Şərqində siyasi baxışlar. *Elm və İnnovativ Texnologiyalar Jurnalı*, 20, 78–89.

Salaeva, R. (2002). *Nakhchyvan – nasledie arkhitektury* [in Russian]. Baku: Azerbaijan.

Seyidbeyli, M. (1990). *Nauchno-kulturnaya zhizn Azerbaydzhana v XIII–XIV vv.* [in Russian]. Baku: Chashioglu.

Səfərli, H. (2017). *Naxçıvanın Türk-İslam mədəniyyəti abidələri*. Naxçıvan: Əcəmi.

Şərifov, Ş. Ş. (2013). *İslam tarixi*. Bakı: Nurlar.

Şərifov, Ş. Ş. (2018). Bərdə şəhərinin Xilafət tərəfindən fəthi. *Tarix, İnsan və Cəmiyyət*, 2(21), 89–99.

Şərifov, Ş. Ş. (2019a). Azərbaycanın Xilafət tərəfindən fəthi və İslamın yayılması. *Qərbi Kaspi Universiteti Elmi Xəbərlər Jurnalı*, (1), 57–69.

Şərifov, Ş. Ş. (2019b). Erkən Xilafət dövründə yaşamış azərbaycanlı alimlər. *Tarix, İnsan və Cəmiyyət*, 2(25), 60–69.

Şərifov, Ş. Ş. (2019c). Ərəb mənbələrində Arran şəhəri Tiflis. *Akademik Tarih ve Düşünce Dergisi*, 6(2), 1097–1111.

Şərifov, Ş. Ş. (2021). Azərbaycanın Ərdəbil şəhərinin erkən orta əsrlər tarixi. *AMEA Sosial Elmlər*, (1), 381–387.

Şərifov, Ş. Ş. (2022). Azərbaycanın Marağa şəhərinin erkən orta əsrlər tarixi. *AMEA Sosial Elmlər*, (1), 104–111.

Vəlixanlı, N. M. (1998). VII–XII əsrlər Azərbaycan elmi-ədəbi mühiti. *İpək Yolu*, (1–2).

Vəlixanlı, N. M. (2005). *Naxçıvan – ərəblərdən monqollaradək*. Bakı: Elm.

Vəlixanlı, N. M. (2015). *Naxçıvanın VII–XII əsrlər dövrü*. Naxçıvan: Əcəmi.

Vəlixanlı, N. M. (2016). *Azərbaycan VII–XII əsrlərdə: Tarix, mənbələr, şərhlər*. Bakı: Elm və Təhsil.

**Резюме**

**Назиля Мамедова**

**Об изучении в современной азербайджанской историографии источников средневековой мусульманской культуры**

Научное изучение вопросов мусульманской культуры в азербайджанской историографии со второй половины XX века приобрело интенсивный характер. Особое значение имело введение в научный оборот арабоязычных, персоязычных и тюркоязычных письменных источников, что стало важным этапом в развитии данной исследовательской области. Анализ исторических, географических, теологических, философских и правовых источников позволил определить духовно-интеллектуальные основы исламской цивилизации и её влияние на азербайджанскую культуру. В постсоветский период исследования в этой сфере получили дальнейшее развитие, что создало широкие возможности для привлечения в научный оборот средневековых источников, хранящихся в библиотеках и архивах различных стран.

В статье системно рассматриваются основные направления, научно-теоретические основы и методологические проблемы изучения источников средневековой мусульманской культуры в современной азербайджанской историографии. Цель исследования заключается в выявлении роли азербайджанских учёных в изучении формирования и развития мусульманской культуры, характеристике используемых ими первичных источников и определении особенностей современных научных подходов.

В результате установлено, что комплексное исследование источников средневековой мусульманской культуры в современной азербайджанской историографии позволяет не только раскрыть мировое значение исламской цивилизации, но и научно обосновать её роль в формировании национально-духовной идентичности азербайджанского народа. Статья также определяет концептуальные направления будущих исследований и предлагает соответствующие методологические ориентиры.

***Ключевые слова:*** *азербайджанская историография, мусульманская культура, источники, источниковедение.*

**Summary**

**Nazila Mamedova**

**On the study of the sources of medieval muslim culture in modern Azerbaijani historiography**

The scholarly study of Muslim culture in Azerbaijani historiography has gained significant momentum since the second half of the twentieth century. Of particular importance was the introduction of Arabic, Persian, and Turkic written sources into academic circulation, which marked an important stage in the development of this research field. The analysis of historical, geographical, theological, philosophical, and legal sources made it possible to identify the spiritual and intellectual foundations of Islamic civilization and its influence on Azerbaijani culture. During the post-Soviet period, research in this area advanced further, creating broad opportunities for the incorporation of medieval sources preserved in libraries and archives of various countries into scholarly discourse.

The article provides a systematic examination of the main directions, theoretical foundations, and methodological issues concerning the study of the sources of medieval Muslim culture in modern Azerbaijani historiography. The aim of the research is to identify the role of Azerbaijani

scholars in studying the formation and development of Muslim culture, to characterize the primary sources they employ, and to define the distinctive features of modern academic approaches.

As a result, it is established that the comprehensive study of the sources of medieval Muslim culture in modern Azerbaijani historiography not only reveals the global significance of Islamic civilization but also provides a scientific justification for its role in shaping the national and spiritual identity of the Azerbaijani people. The article also outlines conceptual directions for future research and proposes corresponding methodological guidelines.

***Keywords:*** *Azerbaijani historiography, Muslim culture, sources, source studies.*